Millî elmin və təhsilin hamisi

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır!
Heydər ƏLİYEV,
Ümummilli Lider.

İllər öncə türk telekanallarından birində belə fikir səslənmişdi: Azərbaycanın necə bir ölkə, azərbaycanlıların isə necə bir xalq olduğunu bilmək üçün Heydər Əliyev şəxsiyyətini öyrənmək yetər.

"Bizi görmək diləyənlər ona baxsınlar ancaq,
O bizim öndərimizdir, o bizi qurtaracaq.
O bizim varlığımızdır, o bizim mənliyimiz,
Əzəli qüdrətimizdir, əbədi şənliyimiz".

Rəfiq Zəka Xəndan

Bu bir həqiqətdir ki, xalqların da insanlarda olduğu kimi bəxtlisi və bəxtsizi olur. Əgər belə olmasaydı və Tanrı bizim xalqın bəxtinə Heydər Əliyev kimi xilaskarı göndərməsəydi, dövlət müstəqilliyimiz hansı taleyi yaşayardı? Ötən əsrin əvvəllərində Azərbaycan xalqı bir əsrdə iki dəfə dövlət müstəqilliyini itirmiş olsaydı, bir də belə bir səadətə qovuşa bilərdimi?! Dövlət müstəqilliyimizin ikinci dəfə əldən getməsinə cəmi iki-üç addım qalırdı. Heydər Əliyevi Naxçıvandan Bakıya gətirən təyyarə həmin iki-üç addımı ləngitdi və ... Azərbaycanın dövlət müstəqilliyi əbədiləşdirildi. Əlbəttə, bu möhtəşəm nəticə siyasət dahisinin qüdrətinin təsdiqi idi.

Beş il ərzində - 1988-1993-cü ilə qədər Azərbaycanda beş dövlət başçısı dəyişilmişdi. Ölkədə xaos baş alıb gedirdi. Bir tərəfdən torpaqlarımız ermənilər tərəfindən işğal olunmuş, digər tərəfdən etnik separatçılıq, qarşıdurma, hətta dövlətin özünün ordusu bir-birinə qarşı dayanmışdı. Gəncədə Surət Hüseynovun başçılığı ilə üsyan qaldırılmışdı. Belə bir dövrü, belə bir Azərbaycanı ulu öndər 1993-cü ildə miras qəbul etdi və qısa müddətdə Azərbaycanın inkişafına nail ola bildi.

Azərbaycanda elə bir sahə yoxdur ki, Heydər Əliyevin orada əməyi, xeyir-duası olmasın. Ulu öndər təhsilə, iqtisadiyyata, incəsənət adamlarına, idmançılara, ziyalılara, yazıçılara hər kəsə diqqət ayırırdı. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə elm, təhsil və tədris məsələlərini önə çəkib, bu sahəyə böyük qayğı göstərib. Dahi rəhbərin imzaladığı bir sıra mühüm fərman və sərəncamların bu sahənin inkişafında xüsusi rolu olub. Azərbaycanda elm və təhsilin inkişafı məhz Heydər Əliyev kursunun uğurudur. Heydər Əliyev Azərbaycanın müasir elm və təhsil konsepsiyasının banisidir. Ulu öndərin rəhbərliyi ilə həm sovetlər, həm də müstəqillik dövründə təhsilimizin inkişafı ilə bağlı bir sıra sanballı islahatlar həyata keçirilib. Ümummilli lider bu istiqamətdə hər zaman bir şüarı əsas tutub: "Təhsil millətin gələcəyidir". Bu ülvi amal uğrunda yorulmadan çalışıb, hələ Sovet dövründə hər il onlarla, yüzlərlə gənci SSRİ-nin müxtəlif şəhərlərinə oxumağa göndərib. 1971-ci ildə Azərbaycanın gələcəkdə müstəqil olacağını böyük uzaqgörənliklə düşünərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsasını qoyub. Həmin liseyin məzunları müstəqilliyimizin ilk illərində, eləcə də ondan sonrakı dövrlərdə Azərbaycan xalqının ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasında ixtisaslı hərbi kadrlar kimi böyük rəşadətlər göstəriblər. Ulu öndər Heydər Əliyev təhsil işçiləri ilə görüşlərində hər zaman vurğulayırdı ki, məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.

Ümummilli liderin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də respublikamızda təhsil sisteminin yaxşılaşdırılması idi. Buna görə də təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması vəzifəsini qarşıya qoydu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" Sərəncam isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlirdi.

Komissiyanın çox qısa müddətdə hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə mindi. Proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalınmasını da təmin edirdi.

1997-ci ilin yanvarın 31-də Heydər Əliyev Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimlər qrupunu qəbul edərək elm sahəsində islahatların vacibliyini bildirdi. Milli Elmlər Akademiyasının Rəyasət Heyəti ulu öndərin tövsiyələrini rəhbər tutaraq akademiyada islahatların aparılmasına başladı. Eyni zamanda elmi-tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması sahələrinə dair qərarlar qəbul edildi, elmin inkişaf strategiyasının əsas müddəaları müəyyənləşdirildi və tədbirlər həyata keçirildi. "Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyası hazırlandı. Akademiyanın alimləri ilə keçirdiyi həmin görüşdə Heydər Əliyev Azərbaycan elmi qarşısında dayanan əsaslı problemlərə toxundu. Onların aktuallığını əsaslandıraraq alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə etdi, elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürdü. Humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan ulu öndər ədəbiyyat, mədəniyyət tarixinin yazılması zəruriliyi barədə söhbət açdı. Çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı.

Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verildi, bununla da akademiyanın elmimizin inkişafındakı rolu və nailiyyətləri rəsmən təsdiqləndi.

1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir hadisə baş verdi. Azərbaycan dövlətinin və xalqının firavan və xoşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat verən "Əsrin müqaviləsi" imzalandı. Məhz ulu öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın "qara qızılı" bu millətin ağ günlərinin tarixini yazdı. Bu çoxvektorlu inkişaf dinamikası özünü təhsilin inkişafında da göstərdi. Yeni-yeni təhsil ocaqları tikilərək istifadəyə verildi. Universitetlərin maddi-texniki bazaları mərhələli şəkildə zənginləşdirildi.

Ümummilli lider Heydər Əliyev çıxışlarında təhsilin mürəkkəb və vacib sahə olduğunu vurğulayaraq qeyd edirdi ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır". Heydər Əliyev SSRİ dövründə, Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, xalqımızın dahi oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişlənmişdir. Təhsil ocaqlarının sayı 765-dən 2117-yə çatdırılmışdır. Ümummilli lider Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün lazimi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi-tədqiqatlara marağı daha da artırır.

Azərbaycan təhsil tarixində böyük dönüş yaratmış 1999-cu il təhsil islahatına aparan yol heç də hamar deyildi. Müstəqilliyimizi bərpa etdiyimiz ilk illərdə institutlarda sürətlə dağılma prosesi gedirdi. Sosial xaos və anarxiya, hər şeydən əvvəl, mənəvi ehtiyatlara zərbə vursa da onun közərtisi qalmaqda idi. Heydər Əliyevin uzaqgörənliyi sayəsində təhsilin bütün istiqamətlərində böyük irəliləyişlərə nail olundu. Müdrik rəhbərin göstərişi ilə büdcədən təhsil üçün nəzərdə tutulan vəsaitin həcmi ildən-ilə artırılırdı. Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, şagirdlərə dərsliklərin pulsuz verilməsi, tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi dövlət qayğısı sayəsində əldə edilmiş ən mühüm nailiyyətlərdən oldu.

2002-ci ilin sentyabrında Suraxanı rayonundakı 275 saylı tam orta məktəbdə olarkən Heydər Əliyev demişdi ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər görüləcək. Həmin ilin oktyabr ayında "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasınının möhkəmləndirilməsi haqqında" sərəncam imzalandı. Bu sərəncam məktəblərdə təlim şəraitinin və təlim mühitinin yaradılmasında ciddi dönüş yaratdı.

Azərbaycan Prezidenti İlham Əliyev bu gün ulu öndərin təhsil siyasətini uğurla davam etdirir. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə qeyd edib ki, hər hansı bir xalq üçün ən böyük sərvət nə yeraltı, nə yerüstü resurslardır. Xalqın ən böyük sərvəti həm maddi, həm də mənəvi cəhətdən yaxşı yetişdirilmiş kadr potensialıdır.

Təhsil, təlim-tərbiyə sisteminin təməlinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet məsələlərindəndir. Ölkəmizdə təhsilin inkişafının vacibliyi, əhəmiyyəti düzgün qiymətləndirilir və bu sahədə intensiv surətdə islahatlar aparılır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində respublikamızın hər yerində çoxlu sayda yeni məktəb binaları tikilmiş, sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, idman zalları müasir avadanlıqlarla təchiz edilərək şagirdlərin ixtiyarına verilmişdir.

Azərbaycan Prezidentinin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" tapşırığını təhsil işçiləri əməli fəaliyyətləri ilə həyata keçirir, dövrün tələbinə uyğun tədrisin keyfiyyətini yüksəltməklə təhsilimizin inkişafına layiqli töhfələr verirlər.

Ümummilli liderin qeyd etdiyi kimi, biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir. Ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.

Azərbaycanda milli şüurun formalaşması ulu öndərin birinci hakimiyyəti dövrünə təsadüf edir. Ədəbiyyat və incəsənət xadimlərinin dövlət qayğısı ilə əhatə olunması, milli dəyərlərimizin inkişafı, milli bayramlarımızın dövlət səviyyəsində qeyd olunması, ordu quruculuğu prosesi milli kadrların hazırlanması ulu öndərin birinci hakimiyyəti dövründə yüksək səviyyədə həyata keçirilmişdir. Təkcə tarixi filmlərin bəzilərini nəzərdən keçirsək, "Axırıncı aşırım", "Nəsimi", "Dədə Qorqud", "Arxadan vurulan zərbə", "Babək", "Üzeyir ömrü" filmləri ulu öndərin hakimiyyəti dövründə, 1970-ci illərdə çəkilmişdir. Bunlar da milli düşüncənin, milli şüurun formalaşmasında müstəsna rol oynamışdır.

Ulu öndər Heydər Əliyev, eyni zamanda böyük ideoloq idi. Dahi liderin azərbaycançılığı milli dövlətçilik ideologiyasına çevirməsi bundan sonra 100 illər də xalqımız üçün böyük tarixi xidmətdir. Heydər Əliyev azərbaycançılıq ideologiyasına mühüm önəm verirdi. Qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud"da milli düşüncə, azərbaycançılıq ideologiyası geniş əksini tapdığından ulu öndər alimlərin dastanın araşdırılması və tədqiqinə normal şərait yaratmışdı. "Azərbaycan ədəbiyyatı çoxəsrlik tarixi olan "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xəqanin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir", - deyən Heydər Əliyevin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud"un motivləri əsasında bədii film çəkilmişdi.

Heydər Əliyev deyirdi: "Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdı". Azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmləndirilməsinə və inkişafına yönəldilmişdir. Ulu öndər Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayında dövlətin siyasətini səciyyələndirərkən demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Ərazilərimizin işğal altında olduğu bir dövrdə milli birlik yaratmaq üçün bundan möhtəşəm bir ideologiya ola bilməzdi. Milli birlik ideologiyası olan azərbaycançılıq ideologiyasının əsas qayəsi xalqın milli birliyinə nail olmaq, Azərbaycanda və dünyada yaşayan azərbaycanlıların milli birliyini təmin etmək idi. Azərbaycançılıq ideologiyasının təməlində türkçülük, islamçılıq və vətənçilik ideyası dayanır. Yəni əsl türkçülük, vətənçilik, islamçılıq ideyası məhz elə azərbaycançılıq ideologiyasıdır.

Ulu öndər Heydər Əliyev milli məsələləri heç zaman respublikanın sərhədləri çərçivəsində qaldırmayıb, eyni zamanda Azərbaycandan kənarda yaşayan bütün azərbaycanlıları hər zaman, diqqət mərkəzində saxlayıb. Xüsusilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımız bunu hər zaman hiss ediblər və ulu öndər Heydər Əliyev böyük tarixçi idi, tarixi prosesləri dərindən bilir və hadisələrə tarixi təcrübədən nəticə çıxarmaq baxımından yanaşırdı. Təsadüfi deyil ki, hakimiyyətə gəldiyi ilk illərdən imzaladığı ən möhtəşəm sənədlərdən biri də 1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası haqqında tarixi sənəddir və bu tarixi sənədlə ulu öndər Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq azərbaycanlıların deportasiyasına tarixi qiymət verdi.

Azərbaycançılığın mühüm tərkib hissələrindən biri Azərbaycan dilidir, ona dövlət münasibətinin formalaşmasıdır. Hər hansı bir dili ilk növbədə onun daşıyıcısı olan xalq yaşadır. Azərbaycan dilinin gözəl bilicisi və böyük təəssübkeşi olan Heydər Əliyev özünəməxsus müdrikliklə demişdir: "Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, ən çətin vaxtlarda dilimiz itməyib, yaşayıb. Onu xalq yaşadıb, eyni zamanda onu xalqımızın böyük şəxsiyyətləri yaşadıblar". Heydər Əliyev ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəminə çevrildiyi illərdə Azərbaycan dilini məişət və ədəbiyyat səviyyəsindən dövlət dili səviyyəsinə qaldırmaq sahəsində ardıcıl fəaliyyət göstərməklə kifayətlənmir, həm də dilimizin nüfuzunu artırır, onun elmi əsaslarla öyrənilməsinə və geniş yayılmasına imkan yaradırdı. Yəqin ki, yaşlı və orta nəslin yadındadır - məhz Heydər Əliyevin rəhbərliyi və fəal iştirakı ilə 70-ci illərin əvvəllərindən başlayaraq, dövlət əhəmiyyətli tədbirlərdə Azərbaycan dilində danışılır, ana dilinə laqeydlikləri ilə az qala qürrələnən bir sıra nihilist (əxlaqi və mənəvi dəyərlərin inkarı, avtoritetin inkarı) rəhbər işçilər cəmiyyətdə, xalq arasında artıq özlərini əvvəlki kimi rahat hiss edə bilmirdilər. Heydər Əliyev yaradıcı təşkilatların, xüsusən də Yazıçılar İttifaqının qurultaylarında, irimiqyaslı yubiley tədbirlərində Azərbaycan dilində sərrast və gözəl danışmaq nümunəsi göstərməklə, həm də ziyalıların, geniş ictimaiyyətin diqqətini ana dilimizin inkişafına yönəldirdi.

Məhz Heydər Əliyevin ana dili məsələsindəki prinsipiallığı və təkidi sayəsində 1978-ci ildə qəbul olunan Azərbaycan Sovet Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olduğunu təsbit edən məşhur 73-cü maddə daxil edildi. Həmin dövrə Azərbaycan Əsas Qanunda milli dilə dövlət dili statusu verən üç keçmiş sovet respublikasından biri və yeganə türk-müsəlman respublikası idi. Bu tarixi addım Heydər Əliyevin siyasi qətiyyətinin və ana dilinə məhəbbətinin parlaq ifadəsi və təzahürü idi. Dahi şəxsiyyət həmin dövrü belə xatırlayırdı: *"Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur. Ancaq o vaxtlar mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilimizin Azərbaycan dili olduğunu öz Konstitusiyamızda yazmalıyıq və yazacağıq"*. Qədim türk yazılı abidələrinin birində millətin və dövlətin əbədi mövcudluğu üçün vacib olan üç şərt göstərilir: dilini, elini və adət-ənənələrini qorumaq, mühafizə etmək! Heydər Əliyevin müdrik rəhbərliyi ilə ana dilimiz dünyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətimizin rəsmi dilidir, ölkəmizin müstəqilliyi əbədi və dönməz xarakter alıb, xalqımız öz mənəvi irsini qoruyur, inkişaf etdirir və yaşadır.

Ulu öndər Heydər Əliyev qadınlara çox yüksək qiymət verir və hörmət edirdi. O deyirdi: "Ana həyatın başlanğıcıdır. Ən sevdiyim insan Zərifə Əliyevadır. Mən həyatım boyu qadına hörmət eləmişəm və cəmiyyəti, millətimizi, xalqımızı qadına hörmət etməyə dəvət etmişəm. Qadınlar dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır". 1969-cu il iyul ayının 14-də ulu öndər kommunist partiyasının katibi təyin olunandan 20 gün sonra Azərbaycanın fəal qadınlarının konfransı keçirildi. Sovetlər dövründə Azərbaycana rəhbərliyi dövründə Sovet ideologiyasının konyukturasından çıxaraq istər SSRİ, istərsə də respublika Ali Sovetinə seçkilərə tərkibində ziyalı qadınların olmasını məsləhət etdi. O zaman Ali Sovetə seçilən qadınların çoxu kolxozçu, fabrikdə işləyən fəhlə və mexanizotorlar idi. Lakin ulu öndərin dövründə Azərbaycan qadınının daha da inkişaf etməsi, onun SSRİ miqyasında tanınması, bütün sahələrdə əsl Azərbaycan qadını obrazını təsdiq etməsi üçün bütün imkanlardan istifadə edirdi.

1969-cu ildə Azərbayacanda iki dəfə qadın qurultayı, "Azərbaycan qadını" jurnalının 50 illik yubileyi çərçivəsində ulu öndərin təşəbbüsü ilə böyük tədbirlər keçirildi.

1994-cü ildə keçirilən Dünya Qadınlar konfransı İkinci Dünya müharibəsindən sonra dünyada qadınlarla bağlı ən böyük tədbir idi. Birləşmiş Millətlər Təşkilatı bütün ölkələr qarşısında bu konfransa hazırlıqla bağlı ciddi tələblər qoymuşdu. Ölkəmiz ağır vəziyyətdə idi. Ulu öndər hakimiyyətə təzə gəlmişdi və bu dövrdə dövlətimizin büdcəsi tamam boşalmışdı və qadın problemləri ilə məşğul olacaq bir qurumun yaradılması çox çətin idi. 1994-cü ilin sonunda ulu öndərin tövsiyəsi ilə mübariz Azərbaycan qadın obrazı olan Cəfər Cabbarlının "Sevil" əsərindəki Sevil adını daşıyan "Sevil" Qadınlar Təşkilatı yaradıldı. Təşkilata Sevil Əliyeva rəhbərlik edirdi. 1994-cü ildən Beynəlxalq Qadınlar Günü bərpa olundu. 1998-ci ildə Qadın Komitəsi yaradılana qədər BMT-nin qadınlarla bağlı elə bir konvensiyası, deklarasiyası olmadı ki, Azərbaycan məhz ulu öndərin xeyir-duası, tapşırığı ilə onlara qoşulmasın.

Ulu öndərin ideyalarını, fikirlərini yenilməz Ali Baş Komandanımız ləyaqətlə davam etdirir. Azərbaycan torpaqlarının bütövlüyü naminə 44 günlük müharibənin qələbə ilə başa çatması, suveren hüquqlarımızın bərpa edilməsi Prezident İlham Əliyevin Heydər Əliyevin layiqli davamçısı olduğunun göstəricisidir. Cənab Prezident fəxrlə deyir: Mən çox xoşbəxtəm ki, ata vəsiyyətinə əməl etmişəm".

Biz nə qədər şanslı nəsilik ki, həm müasir dövlətimizin qurucusu Heydər Əliyevin varisi, eyni zamanda Müzəffər Ali Baş Komandanımızın müasiri olmuşuq. Azərbaycan xalqının dünyaşöhrətli dahi lideri Müzəffər Ali Baş Komandan, Qalib sərkərdə İlham Əliyevi yetişdirdi. Ona görə də ümummilli lider Heydər Əliyevin xatirəsi qəlbimizdə daim yaşayacaq, adı dillər əzbəri olacaq.

Şəhla ƏLİYEVA,
ADPU Pedaqoji psixologiya kafedrasının müdiri, pedaqogika elmləri doktoru, professor,
Əməkdar müəllim.